**AZƏRBAYCAN RESPUBLİKASININ**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

# SOSİAL, İQTİSADİ İNKİŞAF

# 9

**YANVAR-SENTYABR**

Məlumatlardan istifadə edərkən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə istinad etmək lazımdır.

**Xüsusi işarələr:**

"-" hadisə baş verməmişdir

"..." məlumat mövcud deyil

"0,0" məlumat çox kiçik rəqəmlə xarakterizə olunur

"x" müqayisə mümkün deyil

**İzahlar:**

-cari ilə dair məlumatlar növbəti dəqiqləşdirilmiş statistik hesabatlar əsasında sonrakı nəşrlərdə korrektə edilə bilər

-bəzi hallarda yekunla toplananların cəmi arasındakı fərq rəqəmlərin yuvarlaqlaşdırılması ilə izah olunur

-bu nəşrdə əvvəlki dövrlərə dair məlumatlarla əvvəlki nəşrlərdə həmin dövrlərə aid məlumatlar arasındakı bəzi fərqlər beynəlxalq praktikaya uyğun olaraq yekun statistik hesabatlar əsasında ilkin məlumatlarda aparılmış dəqiqləşdirmələrlə izah olunur

# M Ü N D Ə R İ C A T


| | | |
|---|---|---|
| **I** | **MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR** | **5** |
| | **2021-ci ilin yanvar-sentyabr aylarında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri** | **5** |
| **II** | **REAL SEKTOR** | |
| | Ümumi daxili məhsul | 12 |
| | Sənaye | 15 |
| | Tikinti | 39 |
| | Kənd təsərrüfatı | 46 |
| | Nəqliyyat | 52 |
| | İnformasiya və rabitə | 55 |
| | İstehlak bazarı | 56 |
| | Əmtəə bazarı | 57 |
| | İctimai iaşə xidmətləri | 62 |
| | Əhaliyə göstərilən ödənişli xidmətlər | 63 |
| | Qiymət indeksləri | 66 |
| | Kredit qoyuluşları | 80 |
| | Məşğulluq və işsizlik | 82 |
| **III** | **DÖVLƏT SEKTORU** | |
| | Dövlət büdcəsi | 85 |
| **IV** | **XARİCİ SEKTOR** | |
| | Xarici ticarət | 89 |
| **V** | **İNSTİTUSİONAL DƏYİŞİKLİKLƏR** | |
| | Təsərrüfat subyektlərinin xarakteristikası | 95 |
| **VI** | **SOSİAL SEKTOR** | |
| | Əhalinin gəlirləri | 116 |
| | Əməkhaqqı | 117 |
| | Əhalinin əmanətləri və manatın məzənnəsi | 118 |
| | Demoqrafik vəziyyət | 120 |
| | **Əlavələr** | **123** |
| | **Metodoloji izahatlar** | **143** |

**Azərbaycan Respublikasının**
**Dövlət Statistika Komitəsi**
**Məruzə № 9**
**19 oktyabr 2021-ci il**

# 2021-ci İLİN YANVAR-SENTYABR AYLARINDA ÖLKƏNİN İQTİSADİ VƏ SOSİAL İNKİŞAFININ MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİ

2021-ci ilin yanvar-sentyabr aylarında ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 62,9 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,8 faiz çox **ümumi daxili məhsul** istehsal edilmişdir. Bu dövrdə iqtisadiyyatın neft-qaz sektorunda istehsal olunmuş əlavə dəyər 1,4 faiz, qeyri neft-qaz sektorunda isə 6,2 faiz artmışdır.

Əlavə dəyərin 40,1 faizi sənaye, 10,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 5,2 faizi tikinti, 1,8 faizi informasiya və rabitə, 1,1 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində, 18,4 faizi isə digər sahələrdə istehsal edilmişdir. Məhsula və idxala xalis vergilər ÜDM-in 9,1 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 6279,0 manata bərabər olmuşdur.

**Sənaye** müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2021-ci ilin yanvar-sentyabr aylarında 36,6 milyard manatlıq və ya 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,5 faiz çox sənaye məhsulu istehsal edilmişdir. Sənayenin qeyri neft-qaz sektorunda məhsul istehsalı 19,6 faiz artmışdır.

Sənaye məhsulunun 62,4 faizi mədənçıxarma sektorunda, 31,8 faizi emal sektorunda, 4,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 0,7 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 19,3 faiz artmışdır.

Emal sektorunda əczaçılıq məhsullarının istehsalı 88,8 faiz, tikinti materiallarının istehsalı 72,2 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 65,4 faiz, tütün məmulatlarının istehsalı 56,9 faiz, elektrik avadanlıqlarının istehsalı 53,9 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 46,8 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 42,0 faiz, kağız və karton istehsalı 28,6 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 22,1 faiz, neft məhsullarının istehsalı 17,7 faiz, hazır metal məmulatlarının istehsalı 16,8 faiz, kimya sənayesi məhsullarının istehsalı 16,1 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 15,6 faiz, kompüter, elektron və optik məhsulların istehsalı 13,6 faiz, qida məhsullarının istehsalı 9,3 faiz, içki istehsalı 3,4 faiz, mebel istehsalı 1,9 faiz artmış, ağacın emalı və ağacdan məmulatların istehsalı 10,1 faiz, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 11,8 faiz, geyim istehsalı 13,2 faiz, poliqrafiya məhsullarının istehsalı 42,8 faiz, sair nəqliyyat vasitələrinin istehsalı 90,0 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 5,6 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 12,9 faiz artmışdır.

İstehsal edilmiş sənaye məhsulunun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 oktyabr 2021-ci il vəziyyətinə 601,6 milyon manatlıq hazır məhsul olmuşdur.

**Kənd təsərrüfatı** bitkilərinin yığımı davam edir. 2021-ci il oktyabrın 1-nə kimi qarğıdalı da daxil olmaqla 3246,8 min ton və ya ötən ilin eyni dövrü ilə müqayisədə 5,8 faiz çox dənli və dənli paxlalı bitkiçilik məhsulları, o cümlədən 572,3 min hektar sahədən 1885,4 min ton buğda yığılmışdır. Ölkə üzrə buğdanın orta məhsuldarlığı 32,9 sentner təşkil etmişdir. Bundan əlavə, 984,8 min ton və ya keçən ilin müvafiq dövrünə nisbətən 3,6 faiz çox kartof, 1639,2 min ton (6,7 faiz çox) tərəvəz, 458,2 min ton

(2,7 faiz çox) bostan məhsulları, 740,1 min ton (9,3 faiz çox) meyvə və giləmeyvə, 181,0 min ton (7,4 faiz çox) üzüm, 1013,3 ton (27,0 faiz çox) yaşıl çay yarpağı, 117,0 min ton (30,3 faiz çox) şəkər çuğunduru, 45,1 min ton (25,0 faiz çox) pambıq, 24,4 min ton (0,1 faiz çox) günəbaxan və 4,8 min ton (1,5 faiz çox) tütün yığılmışdır.

2020-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-sentyabr aylarında diri çəkidə ət istehsalı 3,2 faiz artaraq 399,6 min ton, süd istehsalı 1,6 faiz artaraq 1627,3 min ton, yun istehsalı 0,1 faiz artaraq 15,9 min ton, barama istehsalı 10,0 faiz artaraq 491,3 ton, yumurta istehsalı isə 3,8 faiz azalaraq 1412,2 milyon ədəd olmuşdur.

2020-ci ilin yanvar-sentyabr ayları ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 5,0 faiz, o cümlədən heyvandarlıq məhsulları istehsalı 2,6 faiz, bitkiçilik məhsulları istehsalı 7,3 faiz artmışdır.

2021-ci ilin yanvar-sentyabr aylarında **əsas kapitala** 9560,2 milyon manat məbləğində, yaxud 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 8,7 faiz az vəsait yönəldilmişdir. Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 9,7 faiz, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi 8,0 faiz azalmışdır. İstifadə olunmuş vəsaitin 6407,2 milyon manatı və ya 67,0 faizi məhsul istehsalı sahələrinə, 2425,8 milyon manatı (25,4 faizi) xidmət sahələrinə, 727,2 milyon manatı (7,6 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 6303,6 milyon manatını və ya 65,9 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 6388,8 milyon manatı və ya 66,8 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 2021-ci ilin yanvar-sentyabr aylarında 140,3 milyon ton **yük** və 838,9 milyon **sərnişin** daşınmışdır. 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 0,2 faiz, sərnişin daşınması isə 10,0 faiz azalmışdır. Yüklərin 57,3 faizi avtomobil, 31,7 faizi boru kəməri, 7,8 faizi dəmir yolu, 2,9 faizi dəniz, 0,3 faizi isə hava nəqliyyatı ilə daşınmışdır.

Sərnişinlərin 95,1 faizi avtomobil, 4,6 faizi metro, qalan hissəsi isə digər nəqliyyat növləri ilə daşınmışdır.

**İnformasiya və rabitə** müəssisələri tərəfindən göstərilmiş 1699,3 milyon manatlıq xidmətlərin 76,0 faizi əhali sektoruna aid olmuşdur. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2021-ci ilin yanvar-sentyabr aylarında göstərilmiş informasiya və rabitə xidmətlərinin həcmi 5,7 faiz artmış, bu sahədə əldə edilmiş gəlirin 81,0 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

2021-ci ilin yanvar-sentyabr aylarında **pərakəndə ticarət** şəbəkəsindən əhaliyə 30350,1 milyon manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 5402,7 milyon manatlıq **ödənişli xidmət** göstərilmişdir. 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə əmtəə dövriyyəsi 2,8 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir 4,6 faiz artmış, ticarət şəbəkəsində 16406,3 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 13943,8 milyon manatlıq qeyri-ərzaq məhsulları satılmışdır.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2021-ci ilin yanvar-avqust aylarında ölkənin **xarici ticarət** dövriyyəsi 20100,1 milyon ABŞ dolları təşkil etmişdir. Ticarət dövriyyəsinin 12750,6 milyon dollarını və ya 63,4 faizini ölkədən ixrac olunmuş məhsulların, 7349,5 milyon dollarını (36,6 faizini) isə idxal məhsullarının dəyəri təşkil etmiş, nəticədə 5401,1 milyon dollar məbləğində müsbət saldo yaranmışdır. 2020-ci ilin yanvar-avqust ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 28,3 faiz artmış, real ifadədə isə 4,1 faiz, o cümlədən idxal 9,8 faiz azalmış, ixrac isə 0,1 faiz artmışdır.

2021-ci ilin yanvar-avqust aylarında qeyri neft-qaz məhsullarının ixracı 2020-ci ilin yanvar-avqust aylarına nisbətən faktiki qiymətlərlə 37,4 faiz, real ifadədə 24,3 faiz artaraq 1584,5 milyon dollar təşkil etmişdir.

2021-ci ilin yanvar-sentyabr aylarında **istehlak qiymətləri indeksi** 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 105,2 faiz, o

cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 106,0 faiz, qeyri-ərzaq malları üzrə 104,4 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər üzrə 104,6 faiz təşkil etmişdir.

2021-ci ilin yanvar-avqust aylarında muzdlu işçilərin **orta aylıq nominal əməkhaqqı** 2020-ci ilin müvafiq dövrünə nisbətən 2,2 faiz artaraq 725,6 manat təşkil etmişdir.

2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 2021-ci ilin yanvar-sentyabr aylarında **əhalinin gəlirləri** nominal ifadədə 2,0 faiz artaraq 42,3 milyard manat təşkil etmişdir.

Maliyyə Nazirliyinin operativ məlumatlarına əsasən 2021-ci ilin yanvar-sentyabr aylarında **dövlət büdcəsinə** 17871,6 milyon manat vəsait daxil olmuş, büdcədən 17711,9 milyon manat vəsait xərclənmiş, büdcənin icrasında 159,7 milyon manatlıq profisit yaranmışdır.

Mərkəzi Bankın məlumatlarına görə, 2021-ci il sentyabr ayının 1-nə ölkənin bank və digər kredit təşkilatlarının **kredit portfeli** milli valyuta ekvivalentində 15608,0 milyon manat təşkil etmiş, onun 12830,1 milyon manatı uzunmüddətli kreditlər olmuşdur. Ödəmə vaxtı keçmiş kreditlərin məbləği ümumi kredit portfelinin 5,8 faizini təşkil etmişdir.

Əhalinin banklardakı **əmanətlərinin** milli valyuta ekvivalentində məbləği 2021-ci il sentyabr ayının 1-nə 8559,1 milyon manat təşkil etmişdir.

2021-ci ilin yanvar-sentyabr aylarında milli valyutanın 1 ABŞ dollarına nisbətdə **orta məzənnəsi** 1,70 manata, 1 Avroya – 2,04 manata, 100 Türk lirəsinə –21,13 manata, 100 Rusiya rubluna –2,30 manata bərabər olmuşdur.

2021-ci ilin yanvar-avqust aylarında **əhalinin sayı** 25948 nəfər və ya 0,3 faiz artaraq 2021-ci il sentyabr ayının 1-i vəziyyətinə 10145081 nəfərə çatmışdır.

Cədvəl 1

## MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR

| Göstəricinin adı | 2021-ci ilin yanvar-sentyabr ayları, faktiki | 2021-ci ilin yanvar-sentyabr ayları 2020-ci ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə | Məlumat üçün 2020-ci ilin yanvar-sentyabr ayları 2019-cu ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| A | 1 | 2 | 3 |
| **Ümumi daxili məhsul, milyon manat** | **62 877,4** | **104,8** | **96,1** |
| o cümlədən qeyri neft-qaz ÜDM | 40 204,7 | 106,2 | 97,6 |
| **Əhalinin hər nəfərinə düşən ÜDM, manat** | **6 279,0** | **104,3** | **95,3** |
| **Sənaye məhsulu, milyon manat** | **36 558,3** | **104,5** | **95,5** |
| o cümlədən qeyri neft-qaz sənayesi | 10 804,5 | 119,6 | 110,8 |
| **Əsas kapitala yönəldilmiş vəsaitlər, milyon manat** | **9 560,2** | **91,3** | **96,2** |
| o cümlədən qeyri neft-qaz sektoruna | 5 526,4 | 92,0 | 85,9 |
| ondan qeyri neft-qaz sənayesinə | 1 041,1 | 98,0 | 75,9 |
| **Kənd təsərrüfatı məhsulu, milyon manat** | **7 342,1** | **105,0** | **101,5** |
| o cümlədən: bitkiçilik | 3 989,4 | 107,3 | 100,1 |
| heyvandarlıq | 3 352,7 | 102,6 | 103,1 |
| **Nəqliyyat sektorunda yük daşınması, milyon ton** | **140,3** | **99,8** | **81,5** |
| **Nəqliyyat sektorunda sərnişin daşınması, milyon sərnişin** | **838,9** | **90,0** | **62,6** |
| **İnformasiya və rabitə xidmətləri, milyon manat** | **1 699,3** | **105,7** | **102,7** |
| **Pərakəndə ticarət dövriyyəsi, milyon manat** | **30 350,1** | **102,8** | **98,4** |
| **Əhaliyə göstərilən ödənişli xidmətlər, milyon manat** | **5 402,7** | **104,6** | **74,3** |
| **Dövlət büdcəsinin gəlirləri, milyon manat** | **17 871,6** | **99,5** | **106,5** |
| **Dövlət büdcəsinin xərcləri, milyon manat** | **17 711,9** | **95,0** | **111,7** |
| **Dövlət büdcəsinin profisiti, milyon manat** | **159,7** | **x** | **x** |
| **Əhalinin nominal gəlirləri, milyon manat** | **42 251,7** | **102,0** | **98,7** |
| **Əhalinin hər nəfərinə düşən nominal gəlirlər, manat** | **4 219,3** | **101,5** | **97,9** |

…ardı

| A | 1 | 2 | 3 |
|---|---|---|---|
| **Əhalinin banklardakı əmanətləri, 2021-ci il 01 sentyabr vəziyyətinə, milyon manat** | **8 559,1** | **108,7** | **92,0** |
| **Kredit qoyuluşları, 2021-ci il 01 sentyabr vəziyyətinə, milyon manat** | **15 608,0** | **106,3** | **105,9** |
| o cümlədən vaxtı keçmiş kreditlər | 904,2 | 84,9 | 71,4 |
| **Orta aylıq nominal əməkhaqqı, manat** | **725,6*** | **102,2**** | **120,5***** |
| **İstehlak qiymətlərinin indeksi** | **x** | **105,2** | **102,9** |
| **Əhalinin sayı, 2021-ci il 01 sentyabr vəziyyətinə, min nəfər** | **10 145,1** | **100,4** | **100,7** |
| **Xarici ticarət dövriyyəsi[1)], mlyn. ABŞ $** | | | |
| **faktiki qiymətlərlə** | **20 100,1*** | **128,3**** | **70,3***** |
| **müqayisəli qiymətlərlə** | **x** | **95,9**** | **77,3***** |
| o cümlədən: **ixrac** | | | |
| `faktiki qiymətlərlə | 12 750,6* | 142,0** | 69,5*** |
| müqayisəli qiymətlərlə | x | 100,1** | 91,5*** |
| ondan **qeyri-neft ixracı** | | | |
| faktiki qiymətlərlə | 1 584,5* | 137,4** | 90,3*** |
| müqayisəli qiymətlərlə | x | 124,3** | 81,7*** |
| **idxal** | | | |
| faktiki qiymətlərlə | 7 349,5* | 109,8** | 71,3*** |
| müqayisəli qiymətlərlə | x | 90,2** | 57,8*** |

**Qeyd:**

* 2021-ci ilin yanvar-avqust ayları

** 2021-ci ilin yanvar-avqust ayları 2020-ci ilin yanvar-avqust aylarına nisbətən.

*** 2020-ci ilin yanvar-avqust ayları 2019-cu ilin yanvar-avqust aylarına nisbətən.

1) Hesabat dövründə gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyərinə dair məlumatlar nəzərə alınmaqla.

## Ümumi Daxili Məhsul istehsalı

2021-ci ilin yanvar-sentyabr aylarında ölkədə 62877,4 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,8 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.

İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,4 faiz, qeyri neft-qaz sektorunda isə 6,2 faiz artmışdır.

ÜDM istehsalının 40,1 faizi sənaye, 10,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 5,2 faizi tikinti, 1,8 faizi informasiya və rabitə, 1,1 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 18,4 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,1 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 6279,0 manata bərabər olmuşdur.

Cədvəl 2

## Ümumi daxili məhsul istehsalı

milyon manat

| | Yanvar-sentyabr | | 2021-ci ilin yanvar-sentyabr ayları əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| | **2021** | **2020*)** | |
| **Ümumi Daxili Məhsul** | **62877,4** | **52344,3** | **104,8** |
| o cümlədən: Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 4359,4 | 4058,3 | 105,1 |
| Sənaye | 25212,6 | 17856,0 | 103,9 |
| o cümlədən: mədənçıxarma sənayesi | 20399,9 | 14083,4 | 99,6 |
| emal sənayesi | 4029,3 | 3088,3 | 122,4 |
| elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 639,8 | 565,7 | 105,6 |
| su təchizatı, tullantıların təmizlənməsi və emalı | 143,6 | 118,6 | 112,9 |
| Tikinti | 3270,1 | 3339,0 | 96,3 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 6451,3 | 5830,1 | 104,0 |
| Nəqliyyat və anbar təsərrüfatı | 4474,6 | 3727,4 | 111,9 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 702,8 | 580,0 | 118,8 |
| İnformasiya və rabitə | 1124,9 | 1064,1 | 105,7 |
| Digər sahələr | 11540,9 | 10643,2 | 104,6 |
| **Məhsula və idxala xalis vergilər** | **5740,8** | **5246,2** | **107,3** |

*) 2020-ci ilin yanvar-sentyabr aylarının göstəriciləri yekun məlumatlar əsasında dəqiqləşdirilmişdir.

Cədvəl 3

## Neft-qaz və qeyri neft-qaz sektorlarında ümumi daxili məhsul istehsalı

milyon manat

| | Yanvar-sentyabr | | 2021-ci ilin yanvar-sentyabr ayları əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| | **2021** | **2020*)** | |
| **Ümumi Daxili Məhsul** | **62877,4** | **52344,3** | **104,8** |
| o cümlədən:<br>neft-qaz sektoru | 22672,7 | 15775,2 | 101,4 |
| qeyri neft-qaz sektoru | 40204,7 | 36569,1 | 106,2 |

*) 2020-ci ilin yanvar-sentyabr aylarının göstəriciləri yekun məlumatlar əsasında dəqiqləşdirilmişdir.

Qrafik 1



# Sənaye

2021-ci ilin yanvar-sentyabr aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 4,5 faiz artaraq 36,6 milyard manat təşkil etmişdir. Neft-qaz sektorunda məhsul istehsalı 1,7 faiz, sənayenin qeyri neft-qaz sektorunda isə 19,6 faiz artmışdır. Sənaye məhsulunun 62,4 faizi mədənçıxarma, 31,8 faizi emal, 4,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Sənayedə qeyri-dövlət sektorunun payı 81,3 faiz olmuşdur. Ümumi istehsalın 91,2 faizi sənaye məhsullarının istehsalı, 8,8 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır.

Cədvəl 4

**Sənaye istehsalı indeksləri,**
sabit qiymətlərlə, faizlə

| | Əvvəlki aya nisbətən | Əvvəlki ilin müvafiq dövrünə nisbətən |
|---|---|---|
| **2020-ci il** | | |
| Yanvar | 98,3 | 102,1 |
| Fevral | 91,0 | 100,9 |
| Mart | 103,0 | 100,8 |
| Aprel | 92,7 | 103,0 |
| May | 110,0 | 100,4 |
| İyun | 92,7 | 98,5 |
| İyul | 100,2 | 97,3 |
| Avqust | 99,7 | 96,9 |
| Sentyabr | 81,0 | 95,5 |
| Oktyabr | 111,0 | 95,5 |
| Noyabr | 107,0 | 95,3 |
| Dekabr | 110,0 | 95,0 |
| **2021-ci il** | | |
| Yanvar | 103,1 | 96,6 |
| Fevral | 90,5 | 96,0 |
| Mart | 103,4 | 96,4 |

...ardı

| | Əvvəlki aya nisbətən | Əvvəlki ilin müvafiq dövrünə nisbətən |
|---|---|---|
| Aprel | 92,5 | 96,2 |
| May | 111,8 | 97,8 |
| İyun | 99,2 | 99,7 |
| İyul | 99,4 | 101,1 |
| Avqust | 96,8 | 102,6 |
| Sentyabr | 92,4 | 104,5 |

2021-ci ilin yanvar-sentyabr aylarında 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə aralıq istehlak məhsullarının istehsalı 32,4 faiz, istehsal vasitələrinin istehsalı 31,2 faiz, qısamüddətli istifadədə olan malların istehsalı 10,3 faiz, enerji məhsullarının istehsalı 5,0 faiz artmış, uzunmüddətli istifadədə olan istehlak mallarının istehsalı isə 2,7 faiz azalmışdır.

Cədvəl 5

| | 2021-ci ilin sentyabr ayı 2020-ci ilin sentyabr ayına nisbətən, faizlə | 2021-ci ilin yanvar-sentyabr ayları 2020-ci ilin yanvar-sentyabr aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Sənaye – cəmi** | **133,6** | **104,5** |
| Aralıq istehlak məhsullarının istehsalı | 200,1 | 132,4 |
| Uzunmüddətli istifadədə olan istehlak mallarının istehsalı | 171,2 | 97,3 |
| Qısamüddətli istifadədə olan malların istehsalı | 127,5 | 110,3 |
| İstehsal vasitələrinin istehsalı | 134,6 | 131,2 |
| Enerji məhsullarının istehsalı | 134,0 | 105,0 |

İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 01 oktyabr 2021-ci il vəziyyətinə 601,6 milyon manatlıq hazır məhsul olmuşdur.

Ehtiyatların 49,6 faizi Bakı, 13,0 faizi Sumqayıt, 7,9 faizi Gəncə, 5,4 faizi Şirvan şəhərlərinin, 1,1 faizi Naxçıvan Muxtar Respublikasının, qalan hissəsi isə digər şəhər və rayonların

sənaye müəssisələrinin anbarlarında qalmışdır. Sənaye müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınmış və satış üçün nəzərdə tutulmuş 86,0 milyon manat məbləğində digər məhsullar da mövcud olmuşdur.

## Mədənçıxarma sənayesi

Mədənçıxarma sənayesində istehsalın ümumi dəyəri 22,8 milyard manat olmaqla, əvvəlki ilin yanvar-sentyabr aylarına nisbətən 0,6 faiz artmışdır.

Sahənin əsas məhsulu olan əmtəəlik xam neft hasilatı 25,8 milyon ton, əmtəəlik təbii qaz hasilatı isə 23,4 milyard kub metr təşkil etmişdir. Əmtəəlik neft hasilatı 0,7 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 19,3 faiz artmışdır.

Cədvəl 6

**Mədənçıxarma sənayesində istehsal olunmuş əsas məhsullar**

| Məhsul növləri | 2021-ci ilin yanvar-sentyabr aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.10.2021-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Xam neft və təbii qaz hasilatı** | | | |
| Xam neft (qaz kondensatı daxil olmaqla), min ton | 25868,0 | 99,1 | 156,0 |
| ondan əmtəəlik | 25820,5 | 99,3 | 156,0 |
| Təbii qaz, milyon kub metr | 31693,5 | 115,1* | - |
| ondan əmtəəlik | 23398,0 | 119,3* | - |
| **Metal filizlərinin hasilatı** | | | |
| Mis filizləri və konsentratları, ton | 1913,9 | 98,4 | 334,6 |
| Qiymətli metal filizləri və konsentratları, kq | 6118,3 | 103,0 | 406,3 |
| o cümlədən : qızıl | 2608,1 | 97,3 | 239,4 |
| gümüş | 3510,2 | 107,7 | 166,9 |

…ardı

| Məhsul növləri | 2021-ci ilin yanvar-sentyabr aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.10.2021-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Mədənçıxarma sənayesinin digər məhsulları** | | | |
| Tikinti qumu, min ton | 673,8 | 101,0 | 294,6 |
| İnşaat üçün əhəng daşı, min ton | 300,6 | 102,0 | - |
| Çınqıl, qırmadaş, xırda çay daşı, min ton | 2546,7 | 237,6 | 21,3 |
| Duz, min ton | 53,4 | 92,8 | 0,1 |
| Bentonit, min ton | 175,0 | 150,2 | 196,2 |
| ondan əmtəəlik | 171,5 | 155,5 | 196,2 |
| Gips və anhidrit, min ton | 275,3 | 111,8 | 106,5 |

*) 2020-ci ilin müvafiq dövrü üzrə dəqiqləşdirilmiş məlumatla müqayisədə

Qrafik 2

**Neft və qaz hasilatının aylar üzrə dinamikası**



## Emal sənayesi

Emal sənayesində yanvar-sentyabr aylarında 11630,6 milyon manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir.

Cədvəl 7

### Emal sənayesində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Emal sənayesi-cəmi | ondan qeyri-neft emal sənayesi |
| **2020-ci il** | | |
| Yanvar | 120,9 | 120,7 |
| Yanvar-fevral | 119,5 | 124,1 |
| Yanvar-mart | 120,5 | 126,5 |
| Yanvar-aprel | 114,3 | 119,3 |
| Yanvar-may | 110,9 | 115,8 |
| Yanvar-iyun | 108,2 | 112,2 |
| Yanvar-iyul | 109,4 | 114,9 |
| Yanvar-avqust | 111,5 | 116,6 |
| Yanvar-sentyabr | 106,5 | 113,0 |
| Yanvar-oktyabr | 108,4 | 114,2 |
| Yanvar-noyabr | 108,8 | 114,6 |
| Yanvar-dekabr | 110,4 | 118,0 |
| **2021-ci il** | | |
| Yanvar | 105,3 | 118,0 |
| Yanvar-fevral | 106,4 | 118,3 |
| Yanvar-mart | 107,1 | 116,9 |
| Yanvar-aprel | 114,9 | 122,8 |
| Yanvar-may | 115,6 | 121,8 |
| Yanvar-iyun | 116,4 | 121,7 |
| Yanvar-iyul | 117,0 | 121,2 |
| Yanvar-avqust | 118,2 | 122,9 |
| Yanvar-sentyabr | 122,4 | 124,7 |

Qrafik 3

**Emal sənayesi üzrə istehsal indeksinin dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 8

**Emal sənayesinin fəaliyyət növləri üzrə məhsul buraxılışı**

| Fəaliyyət növlərinin adı | 2021-ci ilin yanvar-sentyabr aylarında istehsal edilmişdir, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|
| **Emal sənayesi –cəmi** | **11630,6** | **122,4** |
| o cümlədən:<br>qida məhsullarının istehsalı | 3275,8 | 109,3 |
| içki istehsalı | 388,7 | 103,4 |
| tütün məmulatlarının istehsalı | 464,5 | 156,9 |
| toxuculuq sənayesi | 227,3 | 146,8 |
| geyim istehsalı | 91,4 | 86,8 |
| dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı | 15,8 | 142,0 |
| mebeldən başqa ağacın emalı və ağacdan məmulatların istehsalı | 48,2 | 89,9 |
| kağız və karton istehsalı | 90,4 | 128,6 |
| poliqrafiya məhsullarının istehsalı | 55,2 | 57,2 |
| neft məhsullarının istehsalı | 3282,0 | 117,7 |
| kimya sənayesi | 1076,8 | 116,1 |

…ardı

| Fəaliyyət növlərinin adı | 2021-ci ilin yanvar-sentyabr aylarında istehsal edilmişdir, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|
| əczaçılıq məhsullarının istehsalı | 7,6 | 188,8 |
| rezin və plastik kütlə məmulatlarının istehsalı | 279,2 | 122,1 |
| tikinti materiallarının istehsalı | 625,4 | 172,2 |
| metallurgiya sənayesi | 491,9 | 115,6 |
| hazır metal məmulatlarının istehsalı | 245,0 | 116,8 |
| kompüter, elektron və optik məhsulların istehsalı | 39,6 | 113,6 |
| elektrik avadanlıqlarının istehsalı | 117,2 | 153,9 |
| maşın və avadanlıqların istehsalı | 210,8 | 100,0 |
| avtomobil, qoşqu və yarımqoşquların istehsalı | 54,3 | 88,2 |
| sair nəqliyyat vasitələrinin istehsalı | 3,3 | 10,0 |
| mebellərin istehsalı | 104,4 | 101,9 |
| zərgərlik məmulatları, musiqi alətləri, idman mallarının və tibb avadanlıqlarının istehsalı | 60,0 | 129,2 |
| maşın və avadanlıqların quraşdırılması və təmiri | 375,8 | 165,4 |

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə tütün məmulatlarının istehsalında 56,9 faiz, qida məhsullarının istehsalında 9,3 faiz, içki istehsalında isə 3,4 faiz artım müşahidə olunmuşdur.

Bu sahələrin əsas məhsullarından qənd və şəkər tozunun istehsalı 53,5 faiz, kərə yağının istehsalı 5,2 faiz, kolbasa məmulatlarının istehsalı 1,8 faiz artmış, duru bitki yağlarının istehsalı 1,5 faiz, marqarin istehsalı isə 5,0 faiz azalmışdır.

Cədvəl 9

## Qida məhsullarının, içki və tütün məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Qida məhsullarının istehsalı | İçki istehsalı | Tütün məmulat-larının istehsalı |
| **2020-ci il** | | | |
| Yanvar | 101,1 | 140,8 | 101,6 |
| Yanvar-fevral | 101,2 | 2,1 d. | 116,3 |
| Yanvar-mart | 105,3 | 2,1 d. | 128,0 |
| Yanvar-aprel | 108,1 | 108,3 | 118,9 |
| Yanvar-may | 101,8 | 102,9 | 126,1 |
| Yanvar-iyun | 98,9 | 96,2 | 116,3 |
| Yanvar-iyul | 98,5 | 93,0 | 127,6 |
| Yanvar-avqust | 99,2 | 91,0 | 138,7 |
| Yanvar-sentyabr | 98,2 | 90,2 | 113,5 |
| Yanvar-oktyabr | 98,7 | 91,0 | 118,3 |
| Yanvar-noyabr | 99,0 | 89,7 | 127,1 |
| Yanvar-dekabr | 97,9 | 86,3 | 92,1 |
| **2021-ci il** | | | |
| Yanvar | 103,0 | 104,8 | 2,9 d. |
| Yanvar-fevral | 102,5 | 81,4 | 2,1 d. |
| Yanvar-mart | 106,3 | 86,9 | 183,1 |
| Yanvar-aprel | 106,9 | 90,1 | 198,7 |
| Yanvar-may | 107,7 | 91,4 | 186,3 |
| Yanvar-iyun | 108,1 | 95,0 | 180,8 |
| Yanvar-iyul | 106,8 | 101,8 | 162,5 |
| Yanvar-avqust | 106,2 | 102,9 | 155,1 |
| Yanvar-sentyabr | 109,3 | 103,4 | 156,9 |

Qrafik 4

**Qida məhsullarının istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 10

**Qida məhsullarının, içki və tütün məmulatlarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar**

| Məhsul növləri | 2021-ci ilin yanvar-sentyabr aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.10.2021-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Qida məhsulları** | | | |
| Kolbasa məmulatları, ton | 17961,5 | 101,8 | 19,6 |
| Qaymaq və xama, ton | 6718,1 | 124,4 | - |
| Pendir və kəsmik, ton | 39995,1 | 101,5 | 79,5 |
| Kərə yağı, ton | 19148,2 | 105,2 | 80,2 |
| Cem və marmeladlar, ton | 67888,9 | 119,4 | 2512,6 |
| Duru bitki yağları, ton | 38329,7 | 98,5 | 1419,8 |
| Marqarin, ton | 35277,3 | 95,0 | 1659,1 |
| İnsanın qidalanması üçün yararlı olan duz, min ton | 51,7 | 92,3 | 2,5 |
| Qənd və şəkər tozu, min ton | 250,8 | 153,5 | 8,5 |
| **İçki məhsulları** | | | |
| Araq, min dkl | 1049,3 | 81,9 | 281,1 |
| Brendi (konyak), min dkl | 16,1 | 88,5 | 18,3 |
| Üzüm şərabı, min dkl | 383,8* | 200,9 | 1051,5 |

…ardı

| Məhsul növləri | 2021-ci ilin yanvar-sentyabr aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.10.2021-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Pivə, min dkl | 4033,9 | 88,8 | 224,2 |
| Alkoqolsuz içkilər, min dkl | 24548,4 | 115,1 | 579,1 |
| **Tütün məmulatları** | | | |
| Fermentləşdirilmiş tütün, ton | 1972,3 | 56,1 | 1433,8 |
| Papiros və siqaretlər, milyon ədəd | 10395,5 | 180,3 | 853,8 |

*) yanvar-avqust aylarının məlumatında aparılmış dəqiqləşmə (338,7 min dkl) nəzərə alınmaqla

**Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı** sahələrində 334,5 milyon manat dəyərində məhsul istehsal edilmiş, əvvəlki ilin yanvar-sentyabr ayları ilə müqayisədə toxuculuq sənayesində 46,8 faiz, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalında 42,0 faiz artım, geyim istehsalında isə 13,2 faiz azalma müşahidə olunmuşdur.

Cədvəl 11

**Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində indekslərin dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Toxuculuq sənayesi | Geyim istehsalı | Dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı |
| **2020-ci il** | | | |
| Yanvar | 98,6 | 170,1 | 40,3 |
| Yanvar-fevral | 125,0 | 179,6 | 59,7 |
| Yanvar-mart | 110,5 | 110,0 | 39,3 |
| Yanvar-aprel | 101,2 | 103,6 | 45,9 |
| Yanvar-may | 101,6 | 113,0 | 62,8 |
| Yanvar-iyun | 99,5 | 106,8 | 63,1 |
| Yanvar-iyul | 100,4 | 115,8 | 86,8 |

…ardı

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Toxuculuq sənayesi | Geyim istehsalı | Dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı |
| Yanvar-avqust | 104,7 | 132,0 | 93,7 |
| Yanvar-sentyabr | 105,1 | 129,2 | 94,7 |
| Yanvar-oktyabr | 106,1 | 133,7 | 107,9 |
| Yanvar-noyabr | 109,6 | 141,5 | 120,0 |
| Yanvar-dekabr | 107,4 | 132,7 | 104,7 |
| **2021-ci il** | | | |
| Yanvar | 110,9 | 89,7 | 3,9 d. |
| Yanvar-fevral | 126,5 | 96,0 | 7,2 d. |
| Yanvar-mart | 127,8 | 110,8 | 4,8 d. |
| Yanvar-aprel | 133,3 | 119,0 | 4,4 d. |
| Yanvar-may | 143,0 | 120,5 | 2,9 d. |
| Yanvar-iyun | 148,1 | 110,7 | 2,2 d. |
| Yanvar-iyul | 156,4 | 101,2 | 161,2 |
| Yanvar-avqust | 152,5 | 90,2 | 156,1 |
| Yanvar-sentyabr | 146,8 | 86,8 | 142,0 |

Cədvəl 12

## Toxuculuq sənayesi, geyim, dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

| Məhsul növləri | 2021-ci ilin yanvar-sentyabr aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.10.2021-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Toxuculuq məhsulları** | | | |
| Pambıq lifi, ton | 48799,8 | 136,2* | 1384,4 |
| Hazır pambıq parçalar, min kv.m | 27413,2 | 128,7 | 1535,7 |
| Pambıq iplik, ton | 17469,6 | 2,3 d.* | 1321,1 |
| ondan əmtəəlik | 16761,7 | 2,5 d.* | 1321,1 |
| Pambıq yataq ağları, min ədəd | 304,4 | 2,1 d. | 4,1 |
| **Geyim istehsalı** | | | |
| Üst geyim, min ədəd | 500,2 | 2,9 d. | 17,0 |
| Alt geyim, min ədəd | 480,3 | 149,2 | 6,1 |
| Corab məmulatları, min cüt | 2336,1 | 123,3 | 35,1 |

…ardı

| Məhsul növləri | 2021-ci ilin yanvar-sentyabr aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.10.2021-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Kişi və ya oğlanlar üçün pambıqdan və ya kimyəvi liflərdən hazırlanan istehsalat və peşə komplektləri, min ədəd | 214,1 | 20,6 | 1,4 |
| Qadın və ya qızlar üçün kostyum və komplektlər, ədəd | 5017 | 157,9 | - |
| **Dəri və dəridən məmulatlar, ayaqqabılar** | | | |
| Dəri, min kv,m | 47,4 | 114,2 | 140,0 |
| Aşılanmış xəz dərilər, min kv.m | 4,0 | 5,0 d. | 0,5 |
| Ayaqqabı, min cüt | 785,1 | 2,5 d. | 151,8 |

*) 2020-ci ilin müvafiq dövrü üzrə dəqiqləşdirilmiş məlumatla müqayisədə

**Neft məhsullarının istehsalı** sahəsində istehsalın ümumi dəyəri 3282,0 milyon manat olmaqla, əvvəlki ilin yanvar-sentyabr ayları ilə müqayisədə 17,7 faiz artmışdır. Neft-kimya sənayesində istifadə üçün benzinin istehsalı 92,2 faiz, sürtkü yağlarının istehsalı 63,9 faiz, neft koksunun istehsalı 34,3 faiz, dizel yanacağının istehsalı 22,1 faiz, neft bitumunun istehsalı 9,3 faiz, avtomobil benzininin istehsalı 7,4 faiz artmış, yanacaq mazutunun istehsalı isə 23,6 faiz azalmışdır.

Cədvəl 13

## Neft məhsullarının istehsalı sahəsində istehsal edilmiş əsas məhsullar

| Məhsul növləri | 2021-ci ilin yanvar-sentyabr aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.10.2021-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Avtomobil benzini, min ton | 915,2 | 107,4 | 37,4 |
| Neft-kimya sənayesində istifadə üçün benzin, min ton | 311,2 | 192,2 | 0,7 |
| Ağ neft, min ton | 377,5 | 105,8 | 26,8 |
| Dizel yanacağı, min ton | 1883,1 | 122,1 | 56,3 |
| Yanacaq mazutu, min ton | 32,4 | 76,4 | 14,8 |
| Sürtkü yağları, min ton | 39,5 | 163,9* | 10,0 |
| Neft bitumu, min ton | 275,4 | 109,3 | 11,2 |
| Neft koksu, min ton | 198,3 | 134,3 | 2,9 |

*) 2020-ci ilin müvafiq dövrü üzrə dəqiqləşdirilmiş məlumatla müqayisədə

**Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı** sahələrində 1363,6 milyon manatlıq məhsul istehsal edilmiş, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə məhsul buraxılışı əczaçılıq məhsullarının istehsalında 88,8 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalında 22,1 faiz, kimya sənayesi məhsullarının istehsalında isə 16,1 faiz artmışdır.

Əsas kimya məhsullarından lak-boya məmulatlarının istehsalı 2,1 dəfə, rezin və plastik kütlə məmulatlarından plastik borular, borucuqlar və şlanqlar üçün fitinqlərin istehsalı isə 3,9 dəfə artmışdır.

Cədvəl 14

## Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Kimya sənayesi | Əczaçılıq məhsullarının istehsalı | Rezin və plastik kütlə məmulatlarının istehsalı |
| **2020-ci il** | | | |
| Yanvar | 140,5 | 160,0 | 103,5 |
| Yanvar-fevral | 119,5 | 104,2 | 103,6 |
| Yanvar-mart | 125,7 | 136,7 | 125,0 |
| Yanvar-aprel | 124,9 | 160,7 | 120,0 |
| Yanvar-may | 124,6 | 3,1 d. | 113,6 |
| Yanvar-iyun | 120,5 | 4,6 d. | 104,1 |
| Yanvar-iyul | 118,8 | 7,8 d. | 119,0 |
| Yanvar-avqust | 113,4 | 9,5 d. | 123,3 |
| Yanvar-sentyabr | 120,1 | 8,2 d. | 116,4 |
| Yanvar-oktyabr | 113,2 | 8,8 d. | 119,1 |
| Yanvar-noyabr | 119,5 | 9,4 d. | 121,7 |
| Yanvar-dekabr | 120,5 | 10,7 d. | 113,5 |
| **2021-ci il** | | | |
| Yanvar | 114,3 | 10,4 d. | 197,0 |
| Yanvar-fevral | 106,5 | 9,6 d. | 145,3 |
| Yanvar-mart | 87,5 | 7,3 d. | 115,2 |
| Yanvar-aprel | 86,6 | 6,0 d. | 124,0 |
| Yanvar-may | 90,2 | 4,4 d. | 124,6 |
| Yanvar-iyun | 94,7 | 3,1 d. | 129,7 |
| Yanvar-iyul | 96,3 | 188,3 | 120,1 |
| Yanvar-avqust | 105,8 | 162,1 | 117,5 |
| Yanvar-sentyabr | 116,1 | 188,8 | 122,1 |

Qrafik 5

**Kimya sənayesi məhsullarının istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 15

**Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar**

| Məhsul növləri | 2021-ci ilin yanvar-sentyabr aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.10.2021-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Kimya sənayesi məhsulları** | | | |
| Azot, min kub m | 16879,1 | 101,1 | 18,0 |
| ondan əmtəəlik | 645,1 | 2,1 d. | 18,0 |
| Yod, ton | 125,6 | 92,8 | 21,4 |
| Oksigen, min kub m | 7455,4 | 4,0 d. | 3,4 |
| ondan əmtəəlik | 7428,5 | 4,1 d. | 3,4 |
| Propilen, min ton | 105,4 | 136,7 | 1,7 |
| ondan əmtəəlik | 98,7 | 135,0 | 1,7 |
| Polietilen, min ton | 121,6 | 118,7 | 7,3 |
| Etilen, min ton | 123,7 | 121,2 | 0,4 |
| Metanol (metil spirti), min ton | 248,8 | 67,6 | 23,6 |
| Lak-boya məmulatları, ton | 20817,5 | 2,1 d. | 100,8 |

…ardı

| Məhsul növləri | 2021-ci ilin yanvar-sentyabr aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.10.2021-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Sair üzvi kompozisiya həllediciləri və durulaşdırıcıları, ton | 32036,8 | 125,1 | 3,3 |
| **Rezin və plastik kütlə məmulatlarının istehsalı** | | | |
| Bərk polietilen borular, borucuqlar, şlanqlar, qollar, ton | 6499,8 | 84,1 | 2157,3 |
| Bərk polipropilen borular, borucuqlar, şlanqlar, qollar, ton | 4314,7 | 152,7 | 75,8 |
| Məsaməli polistirol lövhələr və zolaqlar, ton | 2157,6 | 87,6 | 70,8 |
| Butullar, butulkalar və tutumu 2 litrdən çox olmayan oxşar plastik məmulatlar, min ədəd | 36666,2 | 2,9 d. | 3970,2 |
| Plastik borular, borucuqlar və şlanqlar üçün fitinqlər, ton | 4742,0 | 3,9 d. | 85,5 |
| **Əczaçılıq məhsullarının istehsalı** | | | |
| Tərkibində digər antibiotiklər olan, pərakəndə satış üçün qablaşdırılan dərmanlar, min manat | 0,9 | 6,2 | 14,9 |
| Tərkibində qarışıq və ya xalis məhsullar olan, digər qruplara daxil edilməyən, pərakəndə satış üçün qablaşdırılan sair dərmanlar, min manat | 1070,1 | 197,6 | 506,5 |
| Tibbi maska, milyon ədəd | 23,2 | 182,7 | 1,2 |

**Tikinti materiallarının istehsalı** sahəsində istehsalın ümumi dəyəri 625,4 milyon manat olmaqla, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 72,2 faiz artmışdır. Betondan yığma tikinti konstruksiyaların istehsalı 2,1 dəfə, emal edilmiş mərmər travertin, alebastr və onlardan məmulatların istehsalı 58,1 faiz, sementdən, süni daşdan və ya betondan tikinti blokları və kərpiclərinin istehsalı 53,1 faiz, tikinti gipsinin istehsalı 46,9 faiz, hörmə üçün hazır beton qarışığının istehsalı 36,4 faiz, tikinti

kərpicinin istehsalı 22,8 faiz, tikinti əhənginin istehsalı 9,1 faiz artmış, asfaltın istehsalı isə 15,6 faiz azalmışdır.

Qrafik 6

**Tikinti materiallarının istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 16

**Tikinti materiallarının istehsalı sahəsində istehsal edilmiş əsas məhsullar**

| Məhsul növləri | 2021-ci ilin yanvar-sentyabr aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.10.2021-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Sement, min ton | 2544,7 | 100,7 | 102,2 |
| Tikinti gipsi, min ton | 21,0 | 146,9 | 3,4 |
| ondan əmtəəlik | 21,0 | 148,9 | 3,4 |
| Tikinti əhəngi, min ton | 26,5 | 109,1 | 7,4 |
| Sementdən, süni daşdan və ya betondan tikinti blokları və kərpicləri, min ton | 61,4 | 153,1 | 18,2 |
| Betondan yığma tikinti konstruksiyaları, min kub metr | 52,8 | 2,1 d. | 4,4 |

…ardı

| Məhsul növləri | 2021-ci ilin yanvar-sentyabr aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.10.2021-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Asfalt, min ton | 108,4 | 84,4 | 0,1 |
| Tikinti kərpici, min kub metr | 476,8 | 122,8 | 11,2 |
| Hörmə üçün hazır beton qarışığı, min ton | 1971,2 | 136,4 | - |
| Emal edilmiş mərmər, travertin, alebastr və onlardan məmulatlar, ton | 30854,8 | 158,1 | - |

**Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı** sahələrində yanvar-sentyabr aylarında 736,9 milyon manatlıq məhsul istehsal olunmuş, hazır metal məmulatlarının istehsalı sahəsində 16,8 faiz, metallurgiya sənayesi məhsullarının istehsalında isə 15,6 faiz artım müşahidə olunmuşdur. Yanvar-sentyabr aylarında sahə üzrə 17587,5 ton qara metallardan sair konstruksiyalar istehsal edilmişdir.

Cədvəl 17

**Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində indekslərin dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Metallurgiya sənayesi | Hazır metal məmulatlarının istehsalı |
| **2020-ci il** | | |
| Yanvar | 138,8 | 163,9 |
| Yanvar-fevral | 139,6 | 156,5 |
| Yanvar-mart | 2,1 d. | 102,7 |
| Yanvar-aprel | 2,3 d. | 104,4 |
| Yanvar-may | 2,2 d. | 107,4 |
| Yanvar-iyun | 2,2 d. | 86,9 |
| Yanvar-iyul | 2,1 d. | 99,5 |
| Yanvar-avqust | 2,3 d. | 96,2 |
| Yanvar-sentyabr | 174,9 | 97,9 |
| Yanvar-oktyabr | 178,6 | 101,2 |
| Yanvar-noyabr | 186,6 | 104,2 |
| Yanvar-dekabr | 111,9 | 107,3 |

…ardı

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Metallurgiya sənayesi | Hazır metal məmulatlarının istehsalı |
| **2021-ci il** | | |
| Yanvar | 108,1 | 75,1 |
| Yanvar-fevral | 93,9 | 79,8 |
| Yanvar-mart | 100,6 | 88,5 |
| Yanvar-aprel | 100,0 | 90,7 |
| Yanvar-may | 102,4 | 95,3 |
| Yanvar-iyun | 109,4 | 103,4 |
| Yanvar-iyul | 114,5 | 110,0 |
| Yanvar-avqust | 117,3 | 110,3 |
| Yanvar-sentyabr | 115,6 | 116,8 |

Cədvəl 18

## Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində istehsal edilmiş əsas məhsullar

| Məhsul növləri | 2021-ci ilin yanvar-sentyabr aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.10.2021-ci il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Metallurgiya sənayesi məhsulları** | | | |
| Polad tökmə, min ton | 220,6 | 118,5 | 7,2 |
| Armatur, min ton | 219,0 | 127,1 | 5,0 |
| Polad borular, min ton | 27,6 | 107,0 | 0,2 |
| Emal edilməmiş alüminium ərintiləri, ilkin şəkildə, min ton | 17,3 | 68,4 | 9,4 |
| Alüminium çubuqlar, millər və profillər, ton | 1859,1 | 95,7 | 93,1 |
| **Hazır metal məmulatlarının istehsalı** | | | |
| Qara metallardan yığma tikinti konstruksiyaları, min manat | 16394,7 | 91,9 | - |
| Qara metallardan sair konstruksiyalar, ton | 17587,5 | 68,9 | 3558,2 |
| Misdən elektrik izolyasiyası olmayan çoxdamarlı məftil, tros və kabellər, ton | 4150,0 | 109,2 | - |

**Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı** sahələrində 156,8 milyon manatlıq məhsul istehsal olunmuş, əvvəlki ilin yanvar-sentyabr ayları ilə müqayisədə elektrik avadanlıqlarının istehsalı 53,9 faiz, kompüter, elektron və optik məhsulların istehsalı isə 13,6 faiz artmışdır. Dövr ərzində əvvəlki ilin yanvar-sentyabr ayları ilə müqayisədə stolüstü kompüterlərin istehsalı 5,6 dəfə, 1000 V-dək gərginlik üçün hesablanmış elektrik cərəyanı naqillərinin istehsalı 2,1 dəfə, mayelərin məsrəfi və ya səviyyəsinin ölçülməsi, yoxlanması üçün cihazların istehsalı 75,2 faiz, qəbuledici qurğuları olmayan radio və televiziya verilişləri aparatlarının istehsalı isə 41,6 faiz artmışdır.

Cədvəl 19

**Kompüter, elektron və optik məhsulların, elektrik avadanlıqlarının istehsalı sahələrində istehsalın dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
